V

# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 36

**Bakı şəhəri** „17" mart 2011-ci il

**"Tibb müəssisələrində mövcud olan kompüter tomoqraf aparatlarından istifadə olunmasının səmərəliliyinin artırılması barədə"**

Respublika əhalisinə göstərilən diaqnostik xidmətin təkmilləşdirilməsi və Səhiyyə Nazirliyinin tibb müəssisələrində mövcud olan kompüter tomoqraf (KT) və maqnit-rezonans tomoqrafiya (MRT) aparatlarından səmərəli istifadə edilməsi, onların iş yükünün mütənasib bölünməsinin təmin edilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. Səhiyyə Nazirliyinin idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın:

1.1. xəstələrin KT və MRT müayinələrinə göndərilməsinin bu əmrin 1-ci və 2-ci əlavələrində göstərilən bölgüyə uyğun həyata keçirilməsi təmin edilsin;

1.2. xəstələrə KT və MRT müayinəsinə göndəriş, aparılmış bütün digər diaqnostik müayinə üsullarının nəticələri xəstəyə dəqiq diaqnozun təyin edilməsi üçün kifayət etmədiyi hallarda, xəstəliyin profilinə uyğun mütəxəssisin bu müayinəyə tibbi göstərişin olmasını təsdiq edən rəyi əsasında tibb müəssisəsinin rəhbəri və ya onun müavininin imzası ilə verilsin.

2. Əmrin icrasına nəzarət Tibbi yardımın təşkili şöbəsinin müdiri S.Əliyevə tapşırılsın.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası
Səhiyyə Nazirinin
17.03. 2011-ci il tarixli
36 nömrəli əmrinə

Əlavə N 1

## Xəstələrin kompüter tomoqrafiya müayinəsinə göndərilməsi üzrə bölgü

| **Sıra № si** | **Tibb müəssisənin adı** | **Xidmət etdiyi ərazi** |
|---|---|---|
| 1. | Respublika Klinik Xəstəxanası | Respublikanın şəhər və rayonları( Bakıdan başqa) |
| 2. | Kliniki Tibbi Mərkəz | Bakı şəhərinin Nəsimi və Səbail rayonları |
| 3. | ET Ağ ciyər xəstəlikləri İnstitutu | Bakı şəhərinin Nizami və Xətai rayonları |
| 4. | ET Travmatologiya və Ortopediya İnstitutu | Bakı şəhərinin Binəqədi və Nərimanov rayonları |
| 5. | 3 saylı Kilinik xəstəxana | Bakı şəhərinin Sabunçu , Suraxanı və Xəzər rayonları |
| 6. | ET Cərrahiyyə Mərkəzi | Bakı şəhərinin Yasamal və Qaradağ rayonları |
| 7. | Milli Onkoloji Mərkəz | Onkoloji xəstəliyə şübhə olan bütün xəstələr |

Azərbaycan Respublikası
Səhiyyə Nazirinin
17.03. 2011-ci il tarixli
36 nömrəli əmrinə

Əlavə N 2

**Xəstələrin maqnit-rezonans tomoqrafiya müayinəsinə göndərilməsi üzrə bölgü**

| Sıra № si | Tibb müəssisənin adı | Xidmət etdiyi ərazi |
|---|---|---|
| 1. | Respublika Neyrocərrahiyyə Xəstəxanası | Respublikanın şəhər və rayonları, Bakı şəhərinin Nizami, Xətai, Sabunçu , Suraxanı və Xəzər rayonları |
| 2. | Klinik Tibbi Mərkəz | Bakı şəhərinin Səbail, Nərimanov Nəsimi rayonları |
| 3. | Milli Onkoloji Mərkəz | Bakı şəhərinin Yasamal, Binəqədi, Qaradağ rayonları |

**Qeyd:** Respublika Neyrocərrahiyyə Xəstəxanasında təmir başa çatana qədər bu xəstəxanaya təhkim olunmuş ərazilərdən xəstələr Kliniki Tibbi Mərkəzə göndərilir.